*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 21 sentyabr 2019-cu il | № 73 (2390) | Qiyməti 30 qəpik


# Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin döyüş atışlı əsas mərhələsi icra olunub



*Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənova qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslər tərəfindən təlimlərin gedişi barədə məruzələr edilib.*

Ümumqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələr dinlənildikdən sonra qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov genişmiqyaslı təlimlərin komanda müşahidə məntəqələrindən birində olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşun növü və qismlərinin komandanları, hərbi birlik və birləşmə komandirləri, eləcə də digər vəzifəli şəxslərin məruzələri dinlənildikdən sonra ərazidə qüvvə və vasitələrin tətbiqi üzrə müvafiq tapşırıqlar dəqiqləşdirilib.

Ərazinin kəşfi digər təlim nöqtələrində də aparılıb.

Müdafiə naziri səhra şəraitində ərazidə yaradılmış məntəqələr və müxtəlif poliqonlardakı təlim nöqtələrinə baş çəkib və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

(Ardı 2-ci səhifədə)



Atalarımızın qəhrəmanlığı unudulmayacaq

4-cü səhifədə



"Torpaqlarımız bizi gözləyir"

5-ci səhifədə



Ulu Öndərin Nəsimi irsinə ehtiramı

6-cı səhifədə



Dünyamıza sülh gərəkdir!

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin döyüş atışlı əsas mərhələsi icra olunub

**(Əvvəli 1-ci səhifədə)**

Genişmiqyaslı təlimlərin planına uyğun olaraq, ərazinin kəşfi mərhələsindən sonra təlim iştirakçıları qoşunların qarşılıqlı fəaliyyətinin təşkilini maket üzərində həyata keçiriblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən müşavirədə təlimlərin mərhələlər üzrə epizodları çətin dağlıq relyefli ərazinin maketi üzərində işlənilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə nazirinin rəhbərliyi altında Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, hərbi



birlik və birləşmələrinin cəlb edilməsi ilə keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin döyüş atışlı əsas mərhələsi icra olunub.



Təlimin niyyətinə uyğun olaraq qoşunlar silah və texnikanın tətbiqi ilə dağlarda əks-hücum əməliyyatının təşkili və keçirilməsi, düşmənin əsas qüvvələrinin darmadağın edilməsi məqsədilə qabaqlayıcı zərbələrin endirilməsi və strateji cəhətdən əlverişli rayon və hədlərin ələ keçirilməsi istiqamətində fəaliyyətlərin həyata keçirilməsi üzrə təlim-döyüş tapşırıqlarını məşq ediblər.

Mürəkkəb şəraitdə, dağmeşə, qayalıq ərazilərdə və çətin radioelektron mübarizə mühitində keçirilən təlim zamanı ön və yandan keçmə dəstələrinin əsas zərbə qruplaşmaları, eləcə də artilleriya, aviasiya və döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkili üzrə tapşırıqlar icra edilib.



Təlimdə qoşunların idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, həmçinin döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilib.

Bütün fəaliyyətlər döyüş atışlı mərhələlərdən ibarət olmaqla döyüş vəziyyətinə maksimal uyğun şəraitdə müxtəlif poliqon və təlim mərkəzlərində keçirilib.

Bölmələr döyüş atışları və atəşlə manevrlər yerinə yetirərkən əsas diqqət müasir silah və hərbi texnikanın tətbiqi ilə taktiki tapşırıqların icrasına yönəldilib.

## "Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi dünya birliyində ona etimadın və onun yüksək nüfuzunun təsdiqidir"

Qoşulmama Hərəkatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının XVIII zirvə görüşünün Bakıda keçirilməsi və bu qurumda sədrliyin Azərbaycana verilməsi haqqında yekdilliklə qəbul edilmiş qərar bu ölkəyə böyük etimad və hörmət bəslənməsinə, dünya birliyində onun böyük nüfuzuna dəlalət edir.

Asiya və Afrika ölkələri xalqlarının həmrəyliyi təşkilatının sədri, Qoşulmama Hərəkatında müşahidəçi, qarşıdakı zirvə görüşünün işində iştirak edəcək Helmi Al-Hadidi bu fikri AZƏRTAC-a eksklüziv müsahibəsində söyləyib.

Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə səmərəli və ölçülüb-biçilmiş xarici siyasət yürüdülür və bu gün Azərbaycan həqiqətən beynəlxalq aləmdə fəal rol oynayır.

Helmi Al-Hadidi bildirib ki, Azərbaycan bu qurumda sədrliyi çərçivəsində Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemində rolunun və nüfuzunun artmasına şərait yaradacaq. Bu, müasir dünyada son dərəcə zəruridir. Müasir dünyada yeni reallıqlar və müxtəlif ciddi çağırışlarla üzləşdiyimiz şəraitdə fundamental "Bandunq prinsipləri" xüsusi əhəmiyyət kəsb edir. Ölkələr arasında münasibətlərin nizamlanmasının əsası olan bu prinsiplər heç vaxt indiki qədər aktual olmayıb, yeni çağırışların öhdəsindən yalnız dostluq, əməkdaşlıq və həmrəylik yolu ilə gəlmək olar, bu, bütün dünyada sülhü və sabitliyi təmin edəcək. Qoşulmama Hərəkatında sədr kimi Azərbaycan "bandunq ruhu"nun irəlilədilməsində və bu təşkilatın fəaliyyətinə yeni impuls verilməsində xüsusi rol oynayacaq.

Agentliyin müsahibi əmin olduğunu bildirib ki, Azərbaycan bu məsələnin öhdəsindən ən yüksək səviyyədə gələcək. O, ümidvar olduğunu bildirib ki, qarşıdakı illərdə təşkilat Dağlıq Qarabağ münaqişəsinin və Yaxın Şərqdəki digər həll edilməmiş münaqişələrin ədalətli yolla nizamlanmasına şərait yaratmaq imkanı əldə edəcək. Bununla əlaqədar o, Qoşulmama Hərəkatının iştirakçıları olan bütün 120 dövlət tərəfindən Dağlıq Qarabağ münaqişəsində ölkəmizin haqlı mövqeyinin dəstəklənməsini xatırladıb. O vurğulayıb ki, Misir müxtəlif münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin də ədalətli və sülh yolu ilə nizamlanmasına həmişə tərəfdar olub.

Onun sözlərinə görə, Qoşulmama Hərəkatında sədrlik çərçivəsində gözlənilir ki, Azərbaycan təşkilatın üzvləri olan xalqlar arasında həmrəylik və dostluğun möhkəmlənməsinə, bu ölkələr arasında qarşılıqlı ticarətin təşviqinə, müxtəlif sahələrdə təcrübə mübadiləsinə şərait yaradacaq, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığa, birgə təşəbbüslərin reallaşmasına kömək edəcək.

*Gənc zabitlərimiz*

## "Gərək sənət, peşə seçimində yanılmayasan"




İnsan arzularla yaşayır və bu arzuların həyata keçməsini səbirsizliklə gözləyir. Xüsusilə, orta məktəb illəri hər birimizin qəlbində dərin iz salır, xoş xatirələrlə dolu olan o illərdə arzular, istəklər coşub çağlayır. Daha çox eşitdiyimiz, bir-birimizə ünvanladığımız sualların arasında "Hansı sənəti seçmək istəyirsiniz?" sualı diqqətçəkəndir.

Ön xətt bölmələrimizdən birində "N" hərbi hissəsində nümunəvi xidməti ilə fərqlənən gənc zabit Rza Seyidova ilk sualımız belə oldu: "Necə oldu ki, bu sənəti seçdiniz?"

- Təbii ki, sənət seçimi orta məktəb illərindən başlayır, - deyə gənc zabit söhbətə başladı: "Tanıdığım insanlar var ki, onlar valideynlərinin seçdiyi peşəyə yiyələniblər. Yəni, valideynlərinin arzusunu həyata keçiriblər. Mən belə peşə seçiminə qarşı da deyiləm. Ancaq hər kəs ürəyindən gələn, öz arzuladığı sənətə sahib olanda daha gözəl nəticələr əldə edilir. Bu zaman arzuladığın sənətə mükəmməl yiyələnmək üçün qarşıya çıxan bütün çətinlikləri asanlıqla dəf etməyi bacarırsan. Bir sözlə, seçdiyin sənətin peşəkarı olursan. Gərək sənət, peşə seçimində yanılmayasan. Arzuladığın peşədə çalışanda səmərəli iş fəaliyyətin, xidmətin olur."

Öyrəndik ki, gənc zabit hərbçi peşəsinə ürəyinin səsiylə gəlib. Hələ orta məktəb illərində həmyaşıdları kimi onun da bitib-tükənməyən arzuları olub. Gələcəkdə müqəddəs hərb sənətinin sirlərinə dərindən yiyələnmək, Vətənimizin, torpaqlarımızın müdafiəsində əzmlə dayanmaq Rzanın arzularının ən alisi idi.

Bu istəklə də sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə təqdim edib. İmtahandan yüksək nəticələr əldə edərək, liseyin kursantı adını qazanıb. Hərbi liseydə oxuduğu müddətdə ilkin hərbi vərdişlərə dərindən yiyələnməyə çalışıb, dərslərinə, verilən tapşırıqlara məsuliyyətlə yanaşıb. Liseyin nümunəvi kursantlarından olub.

Hərbi liseyi başa vuran Rza sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. Burada sevdiyi və arzuladığı hərb sənətinin elmi nəzəriyyəsini ordumuzun peşəkar zabitlərindən öyrənib. Keçirilən təlimlərdə hərbi bacarıq və qabiliyyəti təkmilləşib. Döyüş texnikalarının idarəetmə mexanizmini öyrənib.

Ali hərbi təhsil aldıqdan sonra leytenant hərbi rütbəsində xidməti vəzifəsinə cəbhə bölgəsindən başlayan zabit onu da vurğuladı ki, çətin, təhlükəli peşə yoxdur, sadəcə arzuladığın peşə var. Hərb peşəsi müqəddəs peşədir. Heç bir çətinlik bizi qorxutmur. Mövqelərimiz düşmənlə təmas xəttinə yaxındır. Burada təmas xətti ordumuzun ön xətt bölmələrinin nəzarətindədir. Düşmənin hərəkət istiqamətlərini sayıqlıqla izləyirik. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Onların bilik və bacarığı sinif, çöl məşğələlərində daima yoxlanılır. Əsgərlərimiz müxtəlif silahlardan istifadə qaydalarını mükəmməl mənimsəyiblər. Torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq".

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyinin Kollegiya iclası keçirilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin sonunda təlimlərin və 2019-cu ilin doqquz ayının yekunlarına dair Müdafiə Nazirliyinin kollegiya iclası keçirilib.*



Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən cari ilin doqquz ayı ərzində ordu quruculuğu sahəsində aparılan islahatlar, Azərbaycan Ordusunun döyüş fəaliyyəti, silah və texnika ilə təchizatı, maddi-texniki təminatı, kadr islahatları, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, həmçinin əldə edilən nailiyyətlər barədə geniş məruzə ilə çıxış edib.

Nazir müavini bildirib ki, hesabat dövrü ərzində müxtəlif növ hərbi təlimlər, döyüş hazırlığı məşğələləri keçirilib, qoşunların və ön xətt bölmələrinin döyüş qabiliyyəti artıb, şəxsi heyətin peşəkarlıq səviyyəsi yüksəlib.

General-leytenant K.Vəliyev qeyd edib ki, Azərbaycan Ordusunun tabeliyində olan bütün hərbi hissələrdə və hərbi-təhsil müəssisələrində, xüsusilə də ön xətt bölmələrində böyük həcmdə quruculuq, o cümlədən təmir-bərpa işləri aparılıb, yeni hərbi obyektlər istifadəyə verilib, şəxsi heyətin sosial təminatının yaxşılaşdırılması istiqamətində bir sıra addımlar atılıb.

Nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən məsul zabitlərin iştirak etdiyi kollegiya iclasında Müdafiə naziri general-polkovnik Zakir Həsənov yekun çıxışı edib.

Öz çıxışında təlimlərin nəticələrini təhlil edən Müdafiə naziri bildirib ki, qarşıya qoyulan vəzifələr tam həcmdə yerinə yetirilib və plana uyğun olaraq qoşunlar irimiqyaslı döyüş əməliyyatları üzrə tapşırıqları uğurla icra ediblər.



Müdafiə naziri təlimlər zamanı idarəetmə orqanları və qoşunların əməliyyat hazırlığının daha da təkmilləşdirildiyini və qərargahların öz vəzifələrini müvəffəqiyyətlə icra etdiyini qeyd edib.

Komandanlığın qoşunları idarəetmə bacarığı və hərbi qulluqçuların döyüş əzmi Müdafiə naziri tərəfindən yüksək qiymətləndirilib.

General-polkovnik Zakir Həsənov keçirilən genişmiqyaslı təlimlərin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha kollegiya iştirakçılarına çatdırıb.

## İƏT-in Baş katibi Ermənistan baş nazirinin bəyanatı ilə bağlı dərin narahatlığını ifadə edib

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə bu il avqustun 5-də səfər edərək orada səsləndirdiyi bəyanatla bağlı dərin narahatlığını ifadə edən açıqlama verib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Baş katib Ermənistan rəhbərliyinin bu bəyanatı və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü pozan əməllərinin beynəlxalq hüququn prinsiplərinə və beynəlxalq ictimaiyyətin mövqeyinə məhəl qoymadığını və regional sülh və təhlükəsizliyə hədə təşkil etdiyini qeyd edib. O, münaqişənin sülh yolu ilə həlli üzrə BMT və İƏT nizamnamələrinin müddəalarına, Helsinki Yekun Aktına, BMT TŞ-nin 1993-cü il tarixli qətnamələrinə, İƏT-in müxtəlif qətnamələrinə istinad edərək, Ermənistan Respublikasını münaqişənin sülh yolu ilə həlli üçün BMT TŞ-nin müvafiq qətnamələri əsasında Azərbaycan Respublikası ilə sülh danışıqlarına çağırıb.

## "Saber Junction-19" təlimi davam edir



Almaniyanın "Hohenfels" təlim mərkəzində keçirilən "Saber Junction-19" çoxmillətli briqada taktiki təliminin növbəti mərhələsində iştirakçılar qərargahların ərazidə açılması və fəaliyyətlərinin təşkili, eləcə də hərbi qərar qəbuletmə prosesinə başlayıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimdə iştirak edən hərbi qulluqçularımız müxtəlif relyefli ərazilərdən keçməklə qarşıya çıxan manеələrin və şərti düşmənin təxribat fəaliyyətlərinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetiriblər.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 18-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçiriblər.

***19 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***20 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Ombudsman "Sülh aylığı" çərçivəsində silsilə tədbirlər keçirib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova 21sentyabr - Beynəlxalq Sülh Günü ilə bağlı elan edilən "Sülh aylığı" və ölkəmizdə qeyd olunan "Bilik Günü" ilə əlaqədar Füzuli rayonunda və Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində silsilə tədbirlər keçirib.

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində müvəkkil 6 saylı Qayıdış qəsəbəsində körpələr evi-uşaq bağçasında olub, valideynlər, qəsəbə sakinləri, müəssisə əməkdaşlarının iştirakı ilə bağçanın yaradılmasının 40 illik tədbirində iştirak edib. Müvəkkil müharibə illərində çadır düşərgəsində yerləşmiş bu müəssisənin fəaliyyətini dayandırmadığını deyib, həmin dövrün çətinliklərini, müəssisə işçilərinin fədakarlığını diqqətə çatdırıb.

Sonra Zobucuq qəsəbəsinə gedən Ombudsman Füzuli Rayon Xəstəxanasında olub, müəssisənin işçiləri ilə əhalinin hüquqlarının təmin olunması istiqamətində müzakirələr aparıb.

Müvəkkil, həmçinin Füzuli rayonunun orta ümumtəhsil məktəblərində, eləcə də şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd orta məktəbində, uşaq bağçasında olub, müəllim və şagirdlərlə, valideyn və kənd sakinləri ilə görüşüb.

Daha sonra E.Süleymanova Müdafiə Nazirliyinin təmas xəttində yerləşən "N" hərbi hissəsində düşmənlə üzbəüz dayanan əsgər, gizir və zabitlərlə görüşüb.

Səfər çərçivəsində müvəkkilə müraciət etmiş vətəndaşlar da qəbul olunub və müraciətlərin çoxu yerində müzakirə olunmaqla həll edilib.

# Şəhid Müşfiq Orucovun anım mərasimi keçirildi



Vətəni sevmək və qorumaq imandandır.

Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından keçərək şəhidliyə ucalmaq ən böyük şərəf və qürurdur.

And yerimiz olan şəhidlər - dünənimizin qəhrəmanlıq simvolu, bu günümüzün qeyrət salnaməsi, sabahımızın əbədi örnək təmsilçiləridir.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Aprel şəhidi Müşfiq Orucovun anım mərasimi keçirildi.

Tədbirdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabitləri, müəllim və kursantları, şəhidin ailə üzvləri, veteranlar, xalq artistləri, Zəngilan rayon İcra Hakimiyyətinin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov tədbiri açaraq şəhidin ömür yoluna nəzər salaraq bildirdi ki, Müşfiq Orucov 18 sentyabr 1994-cü ildə Bakıda anadan olub. "Ailəsi Zəngilan rayonundan məcburi köçkündür. 7 saylı Zəngilan orta məktəbini bitirən Müşfiq yüksək bal toplayaraq Azərbaycan Texniki Universitetinə qəbul olub.

2015-ci ilin iyulunda hərbi xidmətə yola düşən Müşfiq Aprel döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Bakıda Dədə Qorqud qəbiristanlığında dəfn edilib.

Şəhid Müşfiq Orucov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub...".

Polkovnik Müslüm Nəsirov Ali Baş Komandan İlham Əliyevin dediyi "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Ap-



rel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir", - sözlərini xatırlatdı. Qeyd etdi ki, dövlətimizin başçısının Aprel döyüşlərinin bizim şanlı qələbəmiz olduğunu vurğulaması bu qələbənin Böyük Qələbəylə başa çatacağına, bir qarış torpağımızın belə düşməndə qalmayacağına dair verdiyi mesajdır.

Polkovnik bu kimi tədbirlərin gənclərimizə təqdirəlayiq təsirindən danışaraq vurğuladı ki, gənclərimizin vətənpərvərlik ruhu çox güclüdür. "Azərbaycan gənci üzərinə düşən məsuliyyətin fərqindədir. Onlar Vətəni qorumaq, işğal altındakı torpaqlarımızın azad olunması üçün formalaşırlar. Ordumuz hər an Ali Baş Komandanın əmrilə torpaqlarımızı düşmən tapdağından azad etməyə qadirdir. O gün uzaqda deyil...".

Şəhidin atası Arif Orucov oğlunun Vətən sevgisindən, Zəngilan həsrətindən söz açdı. 25 yaşını qeyd etdikləri Müşfiqlə qürur duyduqlarını vurğuladı.

- Deyirlər ki, şəhidlər vurulanda deyil, unudulanda ölürlər. Mən bir şəhid atası olaraq bu fikirlə tam razıyam. Mənim oğlum da ölməyib. O ürəklərdə yaşayır. Özü də Azərbaycan xalqının ürəyində...

Arif Orucov şəhid ailələrinə göstərilən xüsusi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, Birinci vitse-prezidentə, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Leytenant Günel Dadaşova, Zəngilan rayon İcra Hakimiyyətinin nümayəndəsi Nizami Mövsümov, qazi Arif Məhərrəmov və başqaları çıxış edərək Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin Aprel döyüşləri zamanı göstərdiyi qəhrəmanlıqlardan, cəbhədə əldə etdikləri uğurlardan söz açdılar.

Tədbirin bədii hissəsində şəhidə həsr olunmuş videoçarx nümayiş olundu, xalq artisti Niyaməddin Musayev və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi vətənpərvərlik musiqiləriylə çıxış etdilər.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Atalarımızın qəhrəmanlığı unudulmayacaq




Azərbaycan Hərb Tarixi Muzeyində Rusiya İnformasiya və Mədəniyyət Mərkəzi ilə birgə İkinci Dünya müharibəsinin başlanmasının 80 illiyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov, Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı hərbi attaşesi polkovnik Andrey Aleksentsev, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin, Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, Silahlı Qüvvələrin Hərbi Akademiyasının, şəhər muzeylərinin və digər müəssisələrin nümayəndələri iştirak edirdilər.

Mərasim iştirakçıları öncə İkinci Dünya müharibəsində həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər, sonra Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə mərasim iştirakçılarını salamladı və Azərbaycanla Rusiya arasında əlaqələrin çoxəsrlik tarixi olduğunu, hər iki xalqı ümumbəşəri dəyərlərin birləşdirdiyini, vahid dövlətdə yaşayarkən xalqlarımızın xarici düşmənə qarşı birgə mübarizə apardığını söylədi. O bildirdi ki, Rusiya Federasiyası hazırda ölkəmiz üçün əsas strateji tərəfdaşlardan biridir.

İkinci Dünya müharibəsinin dəhşətli nəticələri barədə söhbət açan muzey rəisi vurğuladı ki, bizim ata və babalarımız alman faşizminə qarşı birlikdə vuruşublar və onların qəhrəmanlığı heç zaman unudulmayacaq.

Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov çıxışında İkinci Dünya müharibəsinin bəşəriyyətə gətirdiyi bəlalardan söhbət açdı, Sovet İttifaqının müharibədə böyük itkilər verdiyini, 30 milyon nəfərədək insanın həlak olduğu, Sovet xalqlarının faşizm üzərində qazanılan qələbəyə böyük töhfə verdiyini söylədi. Bu gün bəzi ölkələrdə faşistlərin qəhrəman kimi təqdim edilməsi cəhdlərinin baş verdiyini bildirən səfir M.Boçarnikov bunun yolverilməz olduğunu vurğuladı: "Böyük məmnuniyyət hissilə qeyd etmək istəyirəm ki, bu mübarizəni biz birlikdə aparırıq. Azərbaycan Rusiya Federasiyasının bu istiqamətdə təşəbbüslərini dəstəkləyir və beynəlxalq arenada, Birləşmiş Millətlər Təşkilatında faşizmin qəhrəmanlıq nümunəsi kimi təqdim edilməsinə qarşı bizimlə birlikdə səs verir. Yekunda onu demək istəyirəm ki, bir ildən artıqdır ki, Azərbaycan Respublikasında işləyirəm, faşizm üzərində qələbənin necə bayramsayağı, təntənəli surətdə qeyd edilməsinə heyran olmuşam. Həmin tədbirlərdə həm ölkə rəhbərliyi, həm Azərbaycan xalqı, həm də müharibə veteranları iştirak edirlər. Müharibə veteranlarına Azərbaycan Respublikasında böyük diqqət və qayğı göstərilir. Bizim bugünkü görüşümüz, inanıram ki, qələbəmizin, yaddaşımızın qorunmasına töhfə olacaq".

Faşist Almaniyası tərəfindən 80 il öncə başlanmış İkinci Dünya müharibəsində milyonlarla insanın həlak olduğunu bildirən tarix elmləri doktoru, Azərbaycan Respublikası Silahlı Qüvvələrin Hərbi Akademiyasının adyunktura və elm şöbəsinin professoru, ehtiyatda olan birinci dərəcəli kapitan Nurulla Əliyev müharibənin siyasi-iqtisadi ziddiyyətlərin kəskinləşməsi səbəbindən yarandığını və bütün planet üçün faciəyə çevrildiyini vurğuladı.

Tədbirdə İkinci Dünya müharibəsinin başlanmasına həsr olunmuş sənədli film nümayiş olundu, sonra H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında hərbi vətənpərvərlik mövzusunda mahnılar səsləndirildi.

Tədbir Azərbaycan Hərb Tarixi Muzeyinin zallarına ekskursiya ilə yekunlaşdı.

**Əbülfət QASIMOV,
Azərbaycan Hərb
Tarixi Muzeyi,
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Ağdamda şəhid Qəzənfər Hüseynovun xatirəsi anılıb

*Ağdam rayonunun Mahrızlı kəndindəki Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş Qəzənfər Hüseynovun xatirəsi anılıb.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhid Qəzənfər Hüseynovun ailə üzvlərinin, döyüş yoldaşlarının, mədəniyyət işçilərinin və məktəblilərin iştirak etdiyi tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasim iştirakçıları sonra şəhid Qəzənfər Hüseynov haqqında hazırlanmış videoçarxı izləyiblər.

Mərasimdə Döyüş Şöhrəti Muzeyinin direktoru Sahib Məmmədov, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Ülvi Qədirov, Qarabağ müharibəsi veteranı Qədir Ələkbərov, şəhidin bacısı Nəzakət Hüseynova və başqaları çıxış edərək, onun mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar. Məlumat verilib ki, Hüseynov Qəzənfər Vəliş oğlu 1966-cı il mayın 1-də Ağdam rayonunun Kosalar kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra keçmiş sovet ordusunda xidmət edib. Hərbi xidmətdən qayıtdıqdan sonra Ağdam dəzgahqayırma zavodunda işləyib. Ermənistanın respublikamıza qarşı təcavüzü başlayanda Qəzənfər Hüseynov da silaha sarılaraq Vətənimizin müdafiəsinə qalxıb. Bir çox döyüşlərdə iştirak edib. 1992-ci il sentyabrın 13-də Çıldıran kəndi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Göytəpə kənd qəbiristanlığında dəfn edilib.

Tədbirdə məktəblilər kompozisiya göstərib, şəhidlərə həsr edilən şeirlər söyləyiblər.

## Azərbaycan-Türkiyə qardaşlığına dair çağırışlar hərarətli alqışlarla qarşılanıb



Türkiyənin İğdır şəhər Mədəniyyət Sarayında 1918-ci ildə Bakının erməni-bolşevik işğalından azad olunmasının 101-ci ildönümü münasibətilə təşkil olunan konfrans işini başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, rəsmi şəxslər, yerli ictimaiyyətin tanınmış nümayəndələri, QHT və KİV təmsilçilərinin qatıldığı konfrans İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin təşəbbüsü, İğdır Valiliyi, eləcə də Azərbaycanın Qarsdakı Baş Konsulluğunun dəstəyi ilə təşkil olunub.

Tədbir Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb.

Sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, ruhlarına "Qurani-Kərim"dən ayələr oxunub.

Açılış mərasimində Azərbaycanın Qars şəhərindəki baş konsulu Nuru Quliyev, İğdır vilayətinin valisi Ənvər Ünlü və İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acar çıxış ediblər. Azərbaycan-Türkiyə qardaşlığının tarixi köklərindən və müasir inkişaf istiqamətlərindən bəhs edən çıxışçılar Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürk və ümummilli lider Heydər Əliyevin xalqlarımızın can birliyini tərənnüm edən ibrətamiz fikirlərini xatırladıblar. Qafqaz İslam Ordusunun şərəfli missiyasından danışılıb. Bildirilib ki, Azərbaycan xalqı hər zaman torpaqlarımız üçün canını fəda edən türk övladlarının ruhunu ehtiramla yad edir.

Sonra Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç, AMEA-nın Tarix İnstitutunun əməkdaşı, dosent İlqar Niftəliyev və BDU-nun Tarix fakültəsinin dosenti Arzu Məmmədovanın məruzələri dinlənilib. Azərbaycanın dövlətçilik tarixi, 1918-ci ildə Cümhuriyyətimizin qurulması, o cümlədən Qafqaz İslam Ordusunun rəşadətlə xalqımızın köməyinə gəlməsindən bəhs edən məruzəçilər əminliklə ifadə ediblər ki, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə əbədiyyətə qədər bir-birinin sevincini sevinc, kədərini kədər kimi qarşılayacaq.

Bütün çıxışlarda ermənilərin xalqlarımıza, dövlətlərimizə və ölkələrimizə səngimək bilməyən xəyanəti mövzusuna da geniş yer verilib. Diqqətə çatdırılıb ki, Azərbaycanın müstəqilliyinin qorunması və ərazi bütövlüyünün bərpası Türkiyə ictimaiyyətinin ən böyük arzusudur. Türkiyə bundan sonra da Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqq işini müdafiə edəcək. Qətiyyətlə bildirilib ki, Ermənistan işğalçılıq siyasətinə son qoymalı və zəbt etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır.

Konfransdakı qardaşlıq və birlik çağırışları hərarətli alqışlarla qarşılanıb.

Yürüşçülər Azərbaycan və Türkiyənin dövlət bayraqlarını, həmçinin Milli Qəhrəman Mübariz İbrahimovun portretini Ağrıdağı Dağçılıq və Təbiət İdman Növləri Klubu tərəfindən simvolik olaraq Milli Qəhrəmanın adı verilən zirvəyə qaldırıblar. Tuzluca rayonundan Təkaltı dağına gedən yol Milli Qəhrəman Mübariz İbrahimovun adını daşıyır.

*Nümunəvi xidmət*

## “Texnikalarımız saz vəziyyətdə saxlanılır”

*Çıxışdan qayıdan avtomobillər parkda sıra ilə düzülmüşdü. Hər maşının sürücüsü ona təhkim olunmuş avtomobili silib təmizləyir, aşkar edilmiş nöqsanları komandirlərin köməyi ilə aradan qaldırırdı. Texnikaları təmiz saxlamaq onların istismar müddətini uzadır, çatışmazlıqların və nasazlıqların vaxtında aradan qaldırılması onların daim səfərə hazırlığını təmin etmək məqsədi daşıyır. "N" hərbi hissəsində fasiləsiz iş davam edirdi.*



Təhkim edilmiş avtomobili çıxışa hazır vəziyyətə gətirən sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Emin Səmədova yaxınlaşdım. Öyrənirəm ki, Şirvan şəhərində dünyaya göz açan həmsöhbətim ona təhkim edilmiş avtomobil haqqında dərin nəzəri və praktiki biliklərə malikdir. O bildirdi ki, texnikasını hər zaman çıxışa hazır vəziyyətdə saxlayır. Onu da qeyd etdi ki, sürücünün başlıca məqsədi xidməti istifadəsində olan avtomobili saz vəziyyətdə saxlamaqdır.

- Sürücü öz səbri, məsuliyyəti, diqqəti, peşəkarlığı, təmkini ilə seçilməlidir. İdarə etdiyimiz texnika dəmir parçasıdır. Hərəkətdə olduğumuz zaman çox hadisələr baş verə bilər. Gözlənilmədən nasazlıqlar yaranar, qarşımıza ani olaraq maneələr çıxa bilər və sair. Bu zaman sürücü yaranan hər cür situasiyada nəqliyyat vasitəsini peşəkarlıqla idarə etməlidir. O, tək özünü deyil, sərnişinləri də düşünməlidir. Sükan arxasında əyləşərkən bu məsuliyyətin çətinliyini dərk etmək lazımdır. Hər bir sürücü idarə etdiyi avtonəqliyyat vasitəsinin ehtiyat hissələrinin sazlığına nəzarət etməli, təmir işləri ilə əlaqədar texniki sənədləri, iş haqqında hesabatları tərtib etməli, texnikasının zəruri ehtiyat hissələri ilə vaxtında təmin olunmasına nail olmalı, avtomobilinin gündəlik fəaliyyətə, istənilən an verilərək komanda ilə səfərə və döyüşə hazır saxlamasına diqqət yetirməlidir. Həmçinin ayrı-ayrı hissə və qovşaqlara riayət etdiyi həyata keçirməli, aşkar etdiyi nasazlıqların vaxtında aradan qaldırılmasına səy göstərməlidir.

Emin Səmədov bildirdi ki, yaxşı sürücü olmaq üçün avtomobil haqqında biliklə yanaşı, yol hərəkəti qaydalarını da yaxşı bilmək və onlara riayət etmək lazımdır. Həmsöhbətim onu da vurğuladı ki, texnikaların daim saz vəziyyətdə saxlanılmasında onlara köməklik göstərən əsgərlər də var. "Etiraf edim ki, bəzi əsgərlərdə sürücülük təcrübəsi az olur. Komandirlərimiz tərəfindən onlarda nəzəri və praktiki bilikləri artırmaq məqsədilə dərslər təşkil olunur. Dərslər gənc sürücülərin bilik və təcrübələrinin artırılmasına zəmin yaradır".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Emin Səmədov kimi təcrübəli sürücülərin sayəsində avtomobillər hər zaman saz vəziyyətdə olur. Çünki bacarıqlı sürücü-mexaniklər maşınlarda aşkar edilən çatışmazlıqları aradan qaldırır və qısa zamanda texnikanı tam hazır vəziyyətə gətirir. Nəticə etibarilə texnikaların sazlığı bölmələrin döyüşə hazırlıq səviyyəsini artırır. Bu da hər bir komandirin qarşısında duran mühüm vəzifələrdən biridir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

## “Torpaqlarımız bizi gözləyir”

Azərbaycan əsgərinin torpaqlarını qoruması, Aprel və Günnüt zəfərlərini qazanması, sözün əsl mənasında, qəhrəmanlıq dastanıdı. Böyük bir amal uğrunda mübarizə aparan Azərbaycan əsgərinin komandirlərinə güvənməsi, silahına sarılıb, biliyinə əsaslanması, ülvi hisslərlə Vətənin keşiyində dayanması qəhrəmanlığın başlanğıcıdı. Ömür deyilən zaman kəsimini Vətəni üçün yaşayan Azərbaycan əsgəri ona tapşırılan mövqeyi sayıqlıqla qorumağa, onu daim nəzarətdə saxlamağa, bunun üçün düşmənin hər hərəkətini müşahidə etməyə və ən nəhayət, torpaqlarımızı düşmən tapdağından azad etməyə hazırdır. Bu Azərbaycan əsgərinin müqəddəs vəzifəsidir. Döyüş silahları və onların xarakterik xüsusiyyətlərinin öyrənilməsi də bu vəzifənin dolğun yerinə yetirilməsi üçündü.



Dərs prosesi zamanı diqqətimi səngərdə dayanıb əlləri ilə qarşı tərəfi göstərən, əsgərlərə nə isə izah edən zabit cəlb etdi. Həmin məqamda mənə elə gəlir ki, zabit sinəsini Vətənə səngər bilən Azərbaycan əsgərinə duyğulu düşüncələrini çatdırır: - Çoxdandı o dağlara, əzəli yurdlarımıza - Xankəndiyə, Şuşaya, Laçına, Kəlbəcərə, Xocalıya gedə bilmirik. Vüqarımız, qürurumuz, baş tacımız, qeyrət qalamız olan uca dağlar bizi gözləməkdədi. Biz bu torpaqları azad edə bilməsək, babalarımızın ruhu bizi bağışlamaz. Ona görə də son damla qanımıza qədər döyüşməli və torpaqlarımızı azad etməliyik. Xalqımızın bizə inamı, güvəni sonsuzdur, borcumuz bu inamı və güvəni doğrultmaqdır. Qarabağı azad etmək biz hərbi qulluqçuların, əsasən də sizin kimi igid əsgərlərin boynuna düşür. İnanıram ki, torpaqlarımızın müdafiəsi naminə qələbəyə qədər döyüşəcək, işğal altında olan digər torpaqlarımızı azad edəcəyik!

Düşüncələrimdən ayrılıb dərs prosesinə cəlb olunan əsgərlərimizə yaxınlaşdım.

- Gördüyünüz kimi, bölmələrimizin şəxsi heyəti məşq prosesinə cəlb olunaraq onların üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır, - deyə bizi mehribanlıqla qarşılayan leytenant Kamil Siraclı bildirdi. - Ön xətdəki bölmələrimiz həmişəki kimi döyüş növbəsi aparır. Arxada yerləşən bölmələrimiz isə dərslərə cəlb olunur, ixtisas bacarıqlarını artırırlar. Yəni, bizim üçün vərdiş etdiyimiz adi günlərdən biridir. Ancaq belə dərslərin əhəmiyyəti böyükdür. Çünki əsgər həm təlim və məşq prosesindən keçməli, həm də ideoloji cəhətdən hazır və bilikli olmalıdır. Yüksək vərdişlərin təməli isə məşq və təlimlərdə qoyulur.

Əsgər Elşən Həsənov söhbətə qoşularaq bildirdi ki, məşq prosesində əsas iş döyüş silahlarını və texnikalarını mükəmməl öyrənməkdir. "Hələ ki, müharibə başa çatmayıb. Müharibə torpaqlarımız işğaldan azad edildəndən sonra başa çatacaq. Ona görə də döyüş zamanı düşmənin yerləşdiyi ərazinin kəşfiyyatını aparmaq, silah və texnikaların taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəmək, qələbələrimizə vəsilə olmaq, torpağını qorumaq və azad etmək ən böyük vəzifə borcumuzdur. Bu baxımdan bugünkü dərs prosesini Qələbəyə doğru atılan bir addım hesab edir və bu işdə kiçik də olsa zəhmətim olduğuna görə özümü xoşbəxt sayıram...

Söhbətə qoşulan əsgərlər - Taci Nuriyev və Süleyman Xəlilov bildirdilər ki, hər birimizin qəlbində müqəddəs bir hiss - Vətənə məhəbbət hissi var. Sərhəddən başlayan Vətən sevgisi məndən, səndən, ondan keçərək bütün Azərbaycana yayılır. Ona görə də Vətənimizin hər qarışı bizim üçün əzizdir. Dərs prosesi zamanı bir hiss bizi rahat buraxmır - axı göz oxşadıqca nəzər yetirdiyimiz torpaqlar da bizimdir. İndi həmin torpaqlara uzaqdan baxmağa məhkumuq. Düşmən bizim sərhədlərimizi parçalasa da, ürəyimizi, beynimizi, əyilməz ruhumuzu, xalqımızın şanlı keçmişini heç bir vəchlə bölə bilmədi. Nə qədər ki, xalqın güvəndiyi Azərbaycan Ordusu var, Azərbaycan torpaqları işğal altında qala bilməz!

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*İmadəddin Nəsimi - 650*

# Ulu Öndərin Nəsimi irsinə ehtiramı

*Xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikir tarixində mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi mənəvi-əxlaqi və bədii dəyərilə yaşamaqdadır.*

Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə şairin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi kimi 1970-ci ildə Suriya Ərəb Respublikasında səfərdə olur. Ulu Öndər Prezident Hafiz Əsədə Hələb şəhərinə getmək və İmadəddin Nəsiminin məzarını ziyarət etmək istədiyini bildirir. Azərbaycan rəhbərinin istəyi yerinə yetirilir. Lakin Nəsiminin qəbrini ziyarət etmək üçün bir müddət gözləmək lazım gəlir. Çünki yerli hakimiyyət orqanlarının nümayəndələri məzarı tapa bilmirdilər. Nəhayət, məzar tapılır, səliqəyə salınır, məzara xidmət edən şəxs ayırılır. Ondan sonra Ulu Öndər məzarı ziyarət edir.

Ulu Öndər Bakıya döndükdən sonra Nəsiminin tanıdılması, 600 illik yubileyinin keçirilməsi və kinofilm çəkilişi məsələlərini gündəmə gətirir. Nəsiminin yubileyinin keçirilməsi barədə məsələ Azərbaycan KP MK Bürosunun 1970-ci il 27 mart, 1971-ci il 24 mart, 29 aprel, 23 iyul tarixli iclaslarında müzakirə edilir. Bundan sonra Heydər Əliyevin Moskvaya, Sov. İKP MK-ya yazdığı məktubda xahiş edilirdi ki, Nəsiminin yubileyinin ümumittifaq və ümumdünya miqyasında qeyd edilməsi üçün SSRİ Nazirlər Sovetinə müvafiq göstərişlər verilsin və yubiley komissiyası yaradılsın. SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin imzası ilə qəbul olunan bu məktuba qərar layihəsi də əlavə olunur.

Heydər Əliyevin tapşırığı ilə akademik Həmid Araslı və professor Araz Dadaşzadə Azərbaycanın valyuta fondu hesabına Suriyaya ezam edilirlər. Onlar Nəsiminin məzarının vəziyyəti ilə tanış olurlar və bərpası məsələsini qaldırırlar. Ulu öndər Heydər Əliyevin əməyi nəticəsində məzar bərpa edilir. Nəsiminin portretini yaratmaq üçün beynəlxalq müsabiqə elan edilir. Azərbaycan KP MK Bürosunun 1972-ci il 2 fevral, 1973-cü il 13 mart və 28 avqust tarixli iclaslarında həmin məsələ müzakirə edilir. Tədbirlər planı işlənib hazırlanır. 1973-cü ilin sentyabrında Azərbaycanda yubiley toplantısı keçirilir. Yubileyə dünyanın 29 ölkəsindən nümayəndələr gəlir. Heydər Əliyev onları qəbul edir. YUNESKO-nun "Kuryer" jurnalında Nəsimi haqqında geniş məqalə dərc olunur, əsərləri ingilis, fransız və başqa dillərə tərcümə edilir.

İmadəddin Nəsiminin 600 illik yubileyinin keçirilməsi və şairin abidəsinin qoyulması yolunda olan maneələr Heydər Əliyev tərəfindən qətiyyətlə aradan qaldırılır. Bununla əlaqədar olaraq Azərbaycan SSR Ali Sovetinin deputatı, xalq yazıçısı Mirzə İbrahimov Ali Sovetin 15 dekabr 1978-ci il IX sessiyasındakı çıxışında bildirir:

"...Heydər Əliyev yoldaşın əməyi, zəhməti, onun ilhamlı fəaliyyəti respublikamızın şərəfini, şöhrətini artırıb... Mən 50 ilə yaxın partiya təşkilatı işlərində işləyirəm. Çox dramatik hadisələrin, partiya həyatımızın tarixində çox fərəhli hadisələrin şahidi olmuşam. Mən deyə bilərəm ki, bu illər ərzində ədəbiyyatımız üçün, mədəniyyətimiz üçün çətinliklə həll etdiyimiz məsələlər Heydər Əliyevin dövründə çox asanlıqla, çox ləzzətlə bizim üçün həll olunurdu. Mən sizə bir misal gətirmək istəyirəm. Biz Nəsiminin yubileyinə hazırlaşırdıq. Bilirsiniz ki, Nəsimi Azərbaycan xalqının 600 il əvvəl feodalizm əsarəti, zülmü içərisində xalqın iradəsini ifadə edən bir şəxsdir. Ancaq Nəsimi öz dövrünün övladı olaraq ziddiyyətlərə malikdir. Onun bəzi ziddiyyətlərindən istifadə edərək, ona qarşı bərk etiraz edənlərə rast gəldik və mən bir məktub almışdım, orada. Nəsimiyə qarşı böyük etiraz var idi. Mənim o zaman ürəyim titrədi, görəsən, Nəsiminin yubileyini batıracayıq, yoxsa keçirəcəyik. Lakin sevimli oğlumuz Heydər Əliyev yoldaş sinəsini qabağa verərək Nəsiminin heykəlini ucaltdı".

2017-ci ilin mayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabrında ölkəmizdə ilk dəfə Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.



Nəsiminin anadan olmasının 650 illiyidir. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Sərəncamda deyilir:

"Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur".

Klassik Azərbaycan şairi, mütəfəkkiri İmadəddin Nəsimi irsinə Heydər Əliyev Fondu hər zaman həssaslıqla yanaşır. Bunun nəticəsidir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ötən ilin sentyabrında Azərbaycanda ilk dəfə olaraq "Nəsimi -şeir, sənət və mənəviyyat festivalı" təşkil olunub. Layihə çərçivəsində tədbirlər həm şairin doğulduğu Şamaxı şəhərində, həm də Bakıda "Qala", "Atəşgah məbədi" qoruqlarında keçirildi. Dörd gün ərzində ümumən 30 tədbir keçirildi. Bakıda müxtəlif sənət növləri üzrə sərgilər, musiqi layihələri, tamaşalar, eləcə də mühazirə, simpozium və seminarlar təşkil olundu. Bu festival Nəsimi yaradıcılığının tərənnümü ilə yanaşı, şeir və sənətin yaşadılması, müxtəlif müstəvilərdə və formatlarda təqdimatları ilə yadda qaldı.

Heydər Əliyev Fondu Nəsimi yaradıcılığının, irsinin təbliğini beynəlxalq aləmdə indi də davam etdirir. Fondun bir sıra tədbirləri kimi, Nəsimi ilə bağlı tədbirlər də beynəlxalq ictimaiyyətə təqdim edilir.

2018-ci il noyabrın 19-20-də Rusiyanın paytaxtı Moskva şəhərində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" keçirilib. Layihə İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının təbliği və iki ölkə arasında mədəni-ədəbi əlaqələrin genişləndirilməsi məqsədi daşıyıb.

Layihə çərçivəsində noyabrın 19-da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) XIV-XV əsrlərin böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin büstünün təntənəli açılış mərasimi olub.

Nəsiminin büstünün açılışı Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Moskvada keçirilən "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" çərçivəsində baş tutub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təntənəli mərasimdə çıxış edərək deyib: "Biz bu gün böyük şair, filosof və mütəfəkkir Nəsimiyə həsr olunmuş tədbirə toplaşmışıq. Nəsimi XIV-XV əsrlərdə yaşayıb-yaradıb. O, Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynayıb, Azərbaycan poeziyasının şah əsərlərini yaradıb, Azərbaycan ədəbi dilinin əsasını qoyub. Nəsimi poeziyası müasir dövrümüzdə də yaşayır və aktualdır. Bu ilin sentyabrında Azərbaycanda ilk dəfə Nəsimiyə həsr edilmiş mənəvi-poetik yaradıcılıq festivalı keçirilib. Festival çərçivəsində çoxlu sayda tədbirlər - poeziya, musiqi və rəqs gecələri, tamaşalar, sərgilər, videoinstalyasiyalar, yoqa və meditasiya təşkil olunub. Bütün bunlar ali şüurun dərinliyinə varmaq üçün edilib".

Daha sonra MDBMİ-nin rektoru, akademik Anatoli Torkunov çıxış edərək bildirib ki, Nəsiminin büstünün qoyulması universitet üçün böyük şərəfdir. O deyib: "Bu gün biz Heydər Əliyev Fondundan olan çoxdankı fəxri, əziz və hörmətli dostlarımızı tamamilə qeyri-adi bir münasibətlə qəbul edirik. Belə ki, kitabxanamızda böyük Azərbaycan şairi və mütəffəkiri İmadəddin Nəsiminin büstünü açırıq. Nəsimi yaradıcılığı Azərbaycan və ərəb dillərində poeziyaya və bütövlükdə Yaxın Şərq regionunun mədəniyyətinə böyük təsir göstərib. Şərq problemlərinə və Şərq dillərinə böyük diqqət yetirən universitetimizdə dahi mütəfəkkirin büstünün açılışı dərin rəmzi məna daşıyır. Rusiya şərqşünaslığının şanlı ənənələrinin davamçısı olan MDBMİ bir çox baxımdan nadir olan və son dərəcə müvəffəqiyyətlə inkişaf edən, ölkənin tərəqqisinə rəvac verən yeni-yeni böyük ustadlar yetişdirən Azərbaycan mədəniyyətinə həmişə xüsusi diqqətlə yanaşıb".

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Leyla Əliyevaya və Anatoli Torkunova minnətdarlığını bildirib. Sonra büstün yaradılmasına görə Heydər Əliyev Fonduna və heykəltəraşa təşəkkür edib. Göstərdiyi dəstəyə görə Leyla Əliyevaya təşəkkür edən Polad Bülbüloğlu deyib: "O, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinə başçılıq edir, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəridir. Mən xüsusi vurğulamaq istəyirəm ki, biz azərbaycanlılar üçün bu universitet çox dəyərlidir, çünki Ümummilli Liderimiz, Azərbaycan siyasətinin patriarxı, böyük dövlət xadimi Heydər Əlirza oğlu Əliyev və indiki Prezidentimiz İlham Heydər oğlu Əliyev bu ali təhsil ocağının fəxri doktorlarıdır. Buna görə də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu bizim üçün kənar ev deyil. Biz həmişə burada olmağa şadıq. Biz bunu yüksək qiymətləndiririk".

Heydər Əliyev Fondu yalnız ölkəmizdə deyil, onun hüdudlarından kənarda da Azərbaycan mədəniyyəti, musiqisi, tarixi ilə bağlı maraqlı tədbirlər keçirir. Ölkəmizin mədəni simasını dünyaya təqdim edir. Moskvada keçirilən "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" Heydər Əliyev Fondunun həyata keçirdiyi əhəmiyyətli beynəlxalq layihələrdən biridir. Nəsimi irsinin, onun əzəmətli, azad poetik ruhunun müasir Rusiyada tanıdılması çox vacibdir. Nəsimi irsi dünyəvi irsdir.

Fondun beynəlxalq miqyasda keçirdiyi bütün tədbirlər, həyata keçirdiyi layihələr xalqımızın, dövlətimizin mənəvi-mədəni irsimizə bəslədiyi tükənməz sevgini təbliğ edir. Dünyanın heç bir ölkəsində mədəniyyətin, ədəbiyyatın təbliğ edilməsi istiqamətində bu qədər işlər görülmür.

"Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2019-cu il tarixli Sərəncamında qeyd olunur: "Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: 2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin."

2019-cu ilin "Nəsimi ili" elan olunması tariximizə, keçmişimizə, mənəvi dəyərlərimizə böyük qiymətdir. Ulu Öndərimiz də həmişə şairlərə, yazıçılara qiymət verib. Prezidentimiz cənab İlham Əliyev ölkəmizin bütün sahələrində olduğu kimi, milli-mənəvi dəyərlərimizin öyrənilməsində də ümummilli lider Heydər Əliyevin qoyduğu kursu uğurla davam etdirir.

**Polkovnik**
**Telman ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun rəisi**

*21 Sentyabr Beynəlxalq Sülh Günüdür*

# Dünyamıza sülh gərəkdir!

*Sülh bəşəriyyət üçün gərəkli olan dəyərdir, əmin-amanlığa, dinc yanaşı yaşamağa çağırışdır. Sülhün qorunması uşaqlarımızın qorunması deməkdir. Bütün müharibələr sülh ilə sona çatıb. Sülh bütün vasitələrdən güclüdür. Dünyada sülh gününün keçirilməsi sülhsevər xalqların bir araya gələrək bəşəriyyətin xilası üçün birlik nümayiş etdirməsidir.*



Beynəlxalq Sülh Günü Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1981-ci ildə qəbul etdiyi qətnamə ilə təsis edilib. İlk sülh günü 1982-ci ilin sentyabrında qeyd olunub. O vaxtdan etibarən hər il sentyabr ayının 3-cü çərşənbə axşamı Beynəlxalq Sülh Günü kimi keçirilirdi. Lakin BMT Baş Assambleyasının 2001-ci ildə qəbul etdiyi qətnaməyə əsasən, Beynəlxalq Sülh Günü artıq bütün sülhsevər ölkələrdə 21 sentyabr tarixində qeyd olunur.

BMT tərəfindən belə bir tarixi günün təsis edilməsində əsas məqsəd bütün ölkələri və xalqları həmin gün hərbi əməliyyatları dayandırmağa və ya sülh problemləri ilə bağlı təhsil və ictimai maarifləndirmə kampaniyaları keçirməyə dəvət etmək olub. Təbii ki, sülh bəşəri rəmzə çevrilərək insanların arzu etdiyi və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən məfhumdur. Bu baxımdan, Beynəlxalq Sülh Gününün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca üzə çıxır. Buna görə də cinsindən, yaşından, irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, sülh arzulayan hər kəsin yardımına ehtiyac duyulur. BMT-nin Baş katibinin hər il Beynəlxalq Sülh Günü münasibətilə müraciətində deyilir ki, münaqişələrin səngiməsi, atəşkəs rejiminə tərəflərin qarşılıqlı şəkildə əməl etməsi təkcə insanların əmin-amanlıq şəraitində yaşaması deyil, eyni zamanda, inkişaf, tərəqqi və bəşəri təhlükəsizliyə təminatdır.

Sülh naminə beynəlxalq səviyyədə aparılan fəaliyyətlər həyati əhəmiyyətə malik olsa da, hər yerdə qorunmur, müdafiə edilmir, milli münaqişələr daha da qloballaşır, coğrafiyası genişlənir, bütövlükdə bəşəriyyət üçün təhlükəli nəticələrə səbəb olur.

İllərdən bəri müharibə şəraitində yaşayan Azərbaycan üçün sülhün təminatı daha əhəmiyyətlidir. 30 ilə yaxındır ki, Ermənistanın torpaqlarımıza təcavüzü nəticəsində müharibənin əziyyətlərini yaşayan, qaçqın, köçkün problemi ilə üzləşən Azərbaycan regionda sülhün, əmin-amanlığın təminatı üçün bütün imkanlardan istifadə edir, beynəlxalq təşkilatlarda ərazi bütövlüyümüzün bərpası üçün aparılan müzakirələrdə, danışıqlarda sülhsevər siyasətini diqqətə çatdırır. Ermənistanın törətdiyi Xocalı soyqırımının tanıdılması barədə müraciətlər dünyanın bütün xalqlarına ünvanlanır. Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi zamanı erməni silahlıları tərəfindən öldürülən, əlil olan soydaşlarımızın hüquqlarının qorunması üçün beynəlxalq ictimaiyyəti ədalətli olmağa çağırır. 1994-cü il mayın 12-dən cəbhədə atəşkəs elan edilmədən bugünədək, demək olar ki, hər gün təmas xəttinə yaxın kəndlərimizi, yaşayış məntəqələrimizi hədəf seçən, iri və xırda çaplı silahlardan atəş açaraq dinc sakinləri öldürən, yaralayan, şikəst edən erməni işğalçıları üçün Sülh Günü, BMT-nin Baş katibinin istənilən çağırışı önəmli deyil. Azərbaycan sülhsevər siyasətini, Ermənistan isə çirkin niyyətini davam etdirməkdədir. Bu gün Azərbaycanın yaşayış məntəqələrinin atəşə tutulması, mülki şəxslərin, xüsusilə uşaqların öldürülməsi Ermənistan dövlətinin yürütdüyü işğalçılıq siyasətinin tərkib hissəsidir. 2017-ci il iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Alxanlı kəndinə hücumu nəticəsində Sahibə Allahverdiyeva və onun iki yaşlı nəvəsi Zəhranın qətlə yetirilməsi, Sərvinaz Quliyevanın ağır yaralanması, daha neçə-neçə faktlar bir daha onu göstərir ki, Ermənistan dövləti öz təcavüzkar siyasəti ilə beynəlxalq hüququn norma və prinsiplərini pozur, region üçün təhlükə yaratmaqdadır.

Dünyada sülhə çağırışlar edilirsə, dinc sakinlərin, qocaların, qadınların və körpə uşaqların qətlə yetirilməsinə biganəlik göstərilməməlidir. Bu gün Azərbaycan qüdrətli və güclü orduya malikdir. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən və beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətində böyük işlər görür.

Hər il Beynəlxalq Sülh Gününü qeyd edən Azərbaycan yaşından, irqindən, milliyyətindən, dinindən, dilindən və cinsindən asılı olmayaraq hər kəsi sülhə səsləyir. Dünyada analoqu olmayan bir faciəni - Xocalı faciəsini yaşayan xalqımız belə bir soyqırımın təkrarlanmasını istəmir. Münaqişə ocaqlarının alovlanmasının qarşısının alınmasını istəyir. Dünyamıza sülh gərəkdir! Nə qədər ki, gec deyil, analar bundan sonra da bir səslə deməlidirlər:

*Mən anayam, bu səsimdə*
*yerin, göyün dərdi var,*
*Sülhə gəlin, ey insanlar,*
*yoxsa dünya məhv olar.*

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# ARMA zirehli transportyoru



ARMA 6x6 təkərli taktiki zirehli transportyor Türkiyənin Otokar şirkəti tərəfindən hazırlanıb və 2010-cu ildə Parisdə keçirilən Eurosatory-2010 sərgisində nümayiş etdirilib. ARMA zirehli maşını komandir, sürücü və səkkiz nəfər əsgər daxil olmaqla on nəfər şəxsi heyəti daşımağa qadirdir. Zirehli transportyor yüksək mobilliyə malikdir və yüksək dərəcədə mina əleyhinə və ballistik mühafizəni təmin edir. ARMA-nın hazırlanmasına 2007-ci ildə başlanılıb və tam olaraq Otokar şirkətinin hesabına maliyyələşdirilib. ARMA 6x6 zirehli transportyorunun uzunluğu 6.428 metr, eni 2.708 metr, hündürlüyü 2.223 metrdir. Tam çəkisi 18.500 kiloqram və yükqaldırması 4.500 kiloqramdır. Maşının korpusu tamamilə bioloji və kimyəvi silahlardan qorunmaq üçün möhkəmləndirilib və xüsusi oturacaqlarla təchiz edilib. ARMA zirehli transportyorunun dönmə dayağında 12,7 mm-lik pulemyot quraşdırılıb. Transportyor həmçinin geniş əl və məsafədən idarəolunan silahlarla təchiz oluna bilər. Maşın 450 at gücündə su ilə soyudulmuş turbodizelli mühərriklə təchiz edilib. Şose yolda sürəti saatda 105 kilometrə çatır, onun hərəkəti isə 700 kilometrdir. Transmissiyası ötürücü avtomat qutusundan və birpilləli paylayıcı qutudan ibarətdir. ARMA bir çox manevləri də dəf etməyə qadirdir. Maşın hidravlik naqilli iki vintin köməyi ilə suda üzə və manevr edə bilir.




ARMA 8x8 zirehli transportyorun çəkisi 24 tondur, tam təchiz edilmiş on iki nəfər heyəti 750 kilometrdən çox məsafəyə daşımağa qadirdir. Zirehli maşınlar hava ərazisi ilə S-130 təyyarələri və digər yük təyyarələri ilə də daşına bilər. Hər iki maşın müasir və yüksək keyfiyyətə malik cihaz və silahlarla təchiz olunub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə S-400 kompleksləri gələn ilin aprelində istifadəyə hazır olacaq



Rusiyadan Türkiyəyə çatdırılan S-400 zenit-raket kompleksləri dekabrda quraşdırılacaq və 2020-ci ilin aprelində istifadəyə hazır olacaq.

Türkiyə KİV-ləri bu barədə respublikanın müdafiə sənayesi katibliyinin rəhbəri İsmayıl Dəmirə istinadla məlumat yayıb. "S-400-lərin çatdırılması tezliklə yekunlaşacaq. Texniki baxımdan sistemlər dekabrda qurulacaq. Lakin bu o demək deyil ki, onlar istifadəyə hazır olacaq. Çünki hələ personalın hazırlığı, bir sıra texniki məqamlar kimi məsələlər var. Bütün bunlar başa çatdıqdan sonra apreldə sistemlər tam hazır olacaq", - deyə İ.Dəmir bildirib.

S-400 zenit-raket sistemi aviasiya vasitələrini, qanadlı raketləri, o cümlədən orta təsir radiuslu ballistik raketləri, həmçinin yerüstü obyektləri məhv etmək üçün nəzərdə tutulub. Hərəkət məsafəsi 400 kilometrə çatan bu sistem hədəfi 30 kilometrədək hündürlükdə vura bilir.

## Litva Polşa və Baltikyanı ölkələrə vahid hava hücumundan müdafiə sistemi yaratmağı təklif edir



Litva hökuməti Latviya, Estoniya və Polşanın birlikdə vahid regional hava hücumundan müdafiə sisteminin yaradılması təklifini irəli sürüb.

Bu barədə Litva telekanallarından birinin efirində Litva Prezidentinin müdafiə məsələləri üzrə müşaviri Vytautas Jukas məlumat verib. Müşavir deyib ki, birlikdə hava məkanının təhlükəsizliyini təmin etmək daha asan olardı. Belə ki, bu məsələdə NATO da yaxından kömək edə bilər.

Qeyd edək ki, hər dörd ölkə - Litva, Latviya, Estoniya və Polşa Şimali Atlantika Alyansının (NATO) üzvüdür.

## Əfqanıstanın Zabul vilayətində terror aktı qurbanlarının sayı 39-a çatıb



Əfqanıstanın cənubunda yerləşən Zabul vilayətində terrorçu kamikadzenin yük maşınına qoyulmuş bombanı partlatması nəticəsində ölənlərin sayı 39-a çatıb. İnsident sentyabrın 19-da səhər saatlarında baş verib.

Yerli polisin məlumatına görə, Zabul vilayətindəki xəstəxananın həyətində törədilmiş partlayış nəticəsində yaralıların sayı isə 140 nəfərdir. Bundan bir gün əvvəl ölü sayının 20, yaralıların isə 90 olduğu xəbər verilmişdi.

Terror aktına görə məsuliyyəti "Taliban" hərəkatı öz üzərinə götürüb.

## Belçika Hərbi Hava Qüvvələrinin qırıcı təyyarəsi Fransa səmasında qəzaya uğrayıb



Belçika Hərbi Hava Qüvvələrinin F-16 qırıcı təyyarəsi Fransanın qərbində qəzaya uğrayıb. Təyyarə evlərdən birinin damını zədələyib.

Hər iki pilot katapult edib, lakin onlardan birinin paraşütü yüksək gərginlikli elektrik xətlərinin iki dirəyi arasındakı kabelə ilişib. Dərhal hadisə yerinə gələn yanğınsöndürənlər onu bu vəziyyətdən xilas ediblər.

Qəza barədə məlumat Belçika Müdafiə Nazirliyi tərəfindən təsdiq edilib. F-16 Belçikanın Floren şəhərindəki uçuş zolağından havaya qalxıb. Tezliklə təyyarədə mühərriklə bağlı problemlər yaranıb. Həmin anlarda təyyarə saatda 800 kilometr sürətlə cəmi 500 metr yüksəklikdə Fransanın hava məkanında uçurmuş. Pilotlar mühərriki yenidən işə sala bilmədikləri üçün təyyarə enməyə başlayıb.

Belçika HHQ-də bildiriblər ki, F-16 qırıcısı təqribən 40 il istifadə olunub, lakin ona yüksək səviyyədə xidmət göstərilib.

**AZƏRTAC-ın materialları əsasında**

*Milli qəhrəmanlarımız*

# Mükafat sahibinə çatmadı...



*Vətən sevgisinin, vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Belə ömürlər şərəflidir, örnəkdir.*

*Şəhidliyin, qəhrəmanlığın məkanı, zamanı olmur. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyub işıqlı sabahımıza boylanan azadlıq pöhrələridi, yüksəlişin, ucalığın ortağıdı. Öz ömrünü ömürlərə - Vətənə bağışlayan oğullardı qəhrəmanlar.*

Yazıçı, İngiltərənin keçmiş baş naziri Bendjamin Dizraelli deyirdi: "Qəhrəmanlığa inamı qəhrəmanlar yaradır".

Xarakterin, tərbiyənin, mənəvi yaddaşın gücü ilə üzə çıxan qəhrəmanlığın ömrü bir an deyil. Qəhrəmanlığın mahiyyətində təsadüf adlanan heç nə yoxdur. Qəhrəmanlıq insanın qanına ana südü, ana laylası ilə hopur. Məqamında Vətənin, xalqın, millətin işıqlı gələcəyinə yönəlir. Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanlarımız bunu bir daha sübut etdilər. Belə oğullardan biri də Azərbaycanın Milli Qəhrəmanı Fərhad Hümbətovdur.

Milli Qəhrəmanın məğrur baxışlı anası Salatın Hümbətova söhbətimizə qürur qarışıq kövrəkliklə başladı. Bildirdi ki, Qərbi Azərbaycanın Qarakilsə (Quqark) rayonunun Arçut kəndindəndirlər.

- Fərhad 10 sentyabr 1968-ci ildə dünyaya gəlmişdi. 1983-cü ildə orta məktəbin səkkizinci sinfini bitirərək Hamamlı (Spitak) rayonundakı texniki-peşə məktəbində sürücü-mexanik peşəsinə yiyələndi. 1986-cı ildə ordu sıralarına çağırıldı. Hərbi xidməti əvvəlcə Çitada, sonra Monqolustan Respublikasında keçdi. Ordudan 1988-ci ildə tərxis olundu. Ermənilərin düşmənçilik hissləri, ərazi iddiaları özünü büruzə verməkdə idi. Azərbaycanlılar tez-tez erməni təcavüzünə məruz qalır, təhlükədə yaşayırdılar. Belə bir vaxtda Fərhad bütün çətinliklərə baxmayaraq doğma kəndimizə qayıtdı. Vəziyyət gərgin olduğundan istəməsə də ailəsini Bakıya köçürdü. Hər bir vətənpərvər gənc kimi doğma torpaqlarımıza qayıdacaqları günün həsrətilə yaşayırdı. Bakı şəhəri Məişət Xidməti İdarəsində sürücü işləməyə başladı.

Salatın ana dedi ki, balam 20 Yanvar faciəsi zamanı təsadüf nəticəsində sağ qaldı.

- Ağır texnika ilə şəhərə daxil olan Sovet qoşun hissələri qarşısına çıxan hər şeyi əzib keçir, heç kimə aman vermirdi. Həmin gecə oğlum Azad yaralandı, Fərhad bir az da ləngisəymiş tankın altında qalacaqmış. Lakin bu hadisə onu qorxutmadı. Əksinə, o, bir tankçı kimi Vətənin keşiyində durmağı qarşısına məqsəd qoydu və 1991-ci ilin oktyabrında könüllü olaraq cəbhəyə yola düşdü.

Fərhad bir neçə kəndin azad olunmasında böyük şücaət göstərir. 1992-ci il martın 7-də Şuşa, Kosalar, Xankəndi istiqamətlərində düşmənin 5 postunu dağıdanların sırasında Fərhad da olur.

29 mart 1992-ci il Fərhadın son döyüş günü...

Fərhadın da daxil olduğu dəstə Xocalının Kosalar kəndində əməliyyat keçirir. Qüvvələr nisbətinin düşmənin xeyrinə olmasına baxmayaraq ermənilər xeyli canlı qüvvə itirir. Xankəndi yaxınlığında sursatları azaldığından, əlavə qüvvə gəlmədiyinə görə geri çəkilmək məcburiyyətində qalırlar. Fərhad Hümbətov bu döyüşdə bir neçə yaralını xilas etsə də, özü qəhrəmancasına həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Hümbətov Fərhad Qənbər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Şəhidlər xiyabanında dəfn edilib. Bakının Binəqədi rayonunda adına park salınıb, büstü qoyulub.

Heç vaxt döyüşlərdən, eyni zamanda, özü haqqında danışmağı sevməzmiş. Sonuncu dəfə evlərinə gələndə ailə üzlərinin həyəcanını da hiss etmişdi sanki. Bir anlıq düşüncəyə dalaraq, "Evə gəlib məni soruşsalar, qorxmayın. Mükafat yazıblar" demişdi. Bu mükafatın nə ilə bağlı olduğunu soruşanda isə gülümsünərək "Elə bir şey deyil. Hamıya yazıblar" cavabını verib.

Bu mükafat sahibinə çatmadı. Fərhadın dəfninin ikinci günü həyətlərinə daxil olan adamlar Qənbər kişiyə, Salatın anaya belə cəsur, qorxubilməz, qəhrəman oğul böyütdüyünə görə minnətdarlıqlarını bildirərək, 3000 manat pul mükafatını təqdim edirlər. Söhbət zamanı məlum olur ki, Fərhad döyüşlər zamanı düşmənin yüksək rütbəli zabitini sağ ələ keçirərək komandanlığa təhvil veribmiş.



- Bu gün Fərhad bütün Azərbaycanın övladıdır, - Salatın ana dedi. - Mən bunu xalqımdan, millətimdən, dövlətimdən, Prezidentimdən, Birinci vitse-prezidentimdən daim xüsusi diqqət və qayğı görən bir şəhid anası olaraq deyirəm.

Milli Qəhrəmanın dayısı Lətif Hüseynov Fərhadın Şəhriyar adına Mədəniyyət Mərkəzindən son mənzilə yola salınma mərasimində şahidi olduğu bir hadisəni xatırladı: Vida mərasimində Fərhadın döyüş yoldaşları da iştirak edirdilər. Hərbi mundirli bir gənc məndən yerimə keçməyi xahiş etdi. Gözlərinin dərinliyində bu gün də sözlə izah edə bilməyəcəyim bir məna vardı. Yerimizi dəyişərkən əlim sinəsinə toxundu... Sinəsindən aldığı yaradan qan axırdı. "Ay oğul, sən bu vəziyyətdə bura niyə gəlmisən?" dedim. "Biz Xankəndini azad edəcəkdik. Məni döyüşdən yaralı halda Fərhad çiynində çıxartdı. Bu gün hospitalda ayılanda eşitdim ki... Mən burada olmalıydım...", - hərbçi dedi.

Şəhidin bacısı Qəlbizər gözlərini qardaşının divardan asılmış şəklinə dikib. Gözlərinin dərinliyində qardaş itkisinin ağrı-acısına qarışmış məğrurluq duyulur. Baxışlarımın ona dikildiyini hiss eləyir deyəsən:

- Fərhad çox vətənpərvər idi. Yurd-yuvamızdan didərgin düşəndən onun sadəcə dodaqları gülürdü, ürəyində, gözlərində bir nisgil vardı. Amma inanırdı, əcdadlarımızın ruhunun dolaşdığı əzəli torpaqlarımıza qayıdacağımıza... Onun gəlişini elə gözləyirdik ki... O gələndə sanki ruhumuzu dinləndirən rahatlıq, bir dünya xoşbəxtlik gətirirdi. O, ən çarəsiz anlarımızın ümidgahıydı. Seçilirdi, fərqlənirdi. Ölümü ilə də seçildi. Hər kəsə nəsib olmur şəhid olmaq, bütöv bir xalq tərəfindən qürurla anılmaq, sevilmək. Qardaşım igidliyi ilə bunu qazandı.

Milli Qəhrəmanın qardaşı Azad Hümbətov dedi ki, Fərhad işğal altında olan torpaqlarımızın, boynu bükük dağlarımızın, məlul baxışlı meşələrimizin, dili kilidlənmiş bulaqlarımızın həsrətini çəkirdi. Dözə bilmirdi bunlara. Fərhad çox mərhəmətli, qayğıkeş idi.

- Fərhad baharı çox sevərdi, - söhbətə qoşulan bacısı Əminə dedi. - İyirmi dörd bahar yaşadı. Şəhidlik zirvəsinə də ömrünün bahar çağında qovuşdu. İllər ötəcək, qardaşım elə ömrünün baharında qalacaq...

- Sözünün əvvəli də, axırı da Vətən idi, - qardaşı Sahib dedi. - Vətəni qorumağı, şəhid olmağı bir övlad kimi şərəf borcu sayırdı...

Əmisinin adını daşıyan Fərhad da, üzgüçülük üzrə birinci yerə layiq görülən Rahib də, dərslərini əla oxuyan Reyhanə də əmiləri ilə fəxr etdiklərini, onun adına layiq olmağa çalışdıqlarını bildirdilər.

Onu tanıyanların söhbətinə sakitcə qulaq asmaq olmur. Bu söhbətlər insanın varlığında qeyri-adi hisslər, ürəyində kövrək duyğular oyadır. İyirmi dörd yaşlı qəhrəmanın ruhu qarşısında baş əyirsən.

Tarixin səhifələrini igidlər yazır - qanlarıyla.

Bu gün bütün Azərbaycan xalqını bir amal birləşdirir: düşmən işğalında olan torpaqlarımızı azad etmək. O gün uzaqda deyil...

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan güləşçisi Mariya Stadnik ikinci dəfə dünya çempionu olub




Azərbaycan güləşçisi Mariya Stadnik (50 kq) Qazaxıstanın paytaxtı Nur-Sultanda keçirilən dünya çempionatının finalında qalib gələrək qızıl medala sahib olub.

Güləşçimiz finalda Rumıniya təmsilçisi Emiliya Alina Vuka 13:0 hesabı ilə qalib gələrək on illik fasilədən sonra ikinci dəfə dünya çempionu adını qazanıb.

Xatırladaq ki, çempionata onaltıdabir finaldan başlayan Mariya Stadnik (50 kq) Nigeriya təmsilçisi Miessiney Mersi Genesisi, səkkizdəbir finalda hindistanlı Seemu Seemunu məğlub edib. Dörddəbir finalda Rusiya idmançısı Yekaterina Poleşuka qalib gələn idmançımız yarımfinala yüksəlməklə "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziyanı təmin edib. Güləşçimiz yarımfinalda çinli Yanan Sunu 6:4 hesabı ilə məğlub edərək adını finala yazdırıb.

Çempionatda yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (82 kiloqram) gümüş, Eldəniz Əzizli (55 kiloqram) isə bürünc medal qazanıblar.

## Paracüdoçularımız “Tokio 2020” Yay Paralimpiya Oyunlarına lisenziya xarakterli turnirdə mübarizə aparacaqlar



Azərbaycanın cüdo idman növü üzrə paralimpiya yığma komandası sentyabrın 23-24-də Özbəkistanın paytaxtı Daşkənddə keçiriləcək beynəlxalq Qran-Pri yarışında iştirak edəcək. Komandamız sentyabrın 19-da Özbəkistana yola düşəcək.

Bununla əlaqədar olaraq Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov komandanın üzvləri ilə görüşüb. O, paracüdo komandamıza ümidlərin böyük olduğunu qeyd edib. İdmançılara yarışlarda uğurlar arzu edib.

"Tokio 2020" Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandıran yarışda ölkəmizi 8 kişi, 8 qadın olmaqla 16 idmançı təmsil eedəcək.

Millimizin heyətində Vüqar Şirinli (60 kq), Bayram Mustafayev, Namiq Abbaslı (hər ikisi 66 kq), Ramil Qasımov (73 kq), Hüseyn Rəhimli (81 kq), Rövşən Səfərov (90 kq), Kənan Abdullaxanlı (100 kq), İlham Zəkiyev (100 kq-dan yuxarı), Şahanə Hacıyeva (48 kq), Səbinə Abdullayeva, Bəsti Səfərova (hər ikisi 52 kq), Afaq Sultanova, Sevda Vəliyeva (hər ikisi 57 kq), Xanım Hüseynova (63 kq), Zülfiyyə Hüseynova (70 kq) və Dürsədəf Kərimova (70 kq-dan yuxarı) yer alıblar.

## Güləşçimiz Mahir Əmiraslanov dünya çempionatına qələbə ilə başlayıb

Qazaxıstanın paytaxtı Nur-Sultanda güləş üzrə dünya çempionatı davam edir.

Çempionatın altıncı yarış günündə - sentyabrın 19-da qadın güləşində 62, 68, sərbəst güləşdə isə 57 və 65 kiloqram çəki dərəcələrində mübarizəyə start verilib.

Güləşçimiz Mahir Əmiraslanov (57 kq) dünya çempionatına qələbə ilə başlayıb. Qırğızıstan təmsilçisi Ulukbek Joldoşbekovu məğlub edən təmsilçimiz onaltıdabir final mərhələsinə yüksəlib. Onun növbəti rəqibi rusiyalı Zaur Uquev olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 593
Nüsxə 3950